# II Beynəlxalq Opera Festivalı "Arşın mal alan" operettasının premyerası ilə açılıb

**Opera Studiyasının səhnəsində rejissor Hafiz Quliyevin quruluşunda "Arşın mal alan" operettasının premyerası olub. Tamaşa Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalının açılış mərasimində baş tutub.**



Tamaşada rolları gənc opera müğənniləri Aysu Əliyeva, Rauf Məmmədzadə, Röya Əliyeva, Şaxirə Rzayeva ifa ediblər. Cahan xala rolunu Azərbaycanın Xalq artisti Fidan Hacıyeva, Soltan bəy rolunu Əməkdar artist, Opera teatrının solisti Fərid Əliyev, Vəli rolunu respublikanın Əməkdar artisti, Opera teatrının artisti Tural Ağasıyev, Əsgər rolunu vokalçı, "Yuğ" teatrının aktyoru Vüqar Hacıyev ifa ediblər.

II Beynəlxalq Opera Festivalı aprelin 29-dək davam edəcək. Bu müddət ərzində paytaxtın müxtəlif məkanlarında tanınmış xarici və azərbaycanlı ifaçıların, o cümlədən gənc opera müğənnilərinin, eləcə də 6-16 yaşarası gənc istedadlıların iştirakı ilə konsertlər təşkil olunacaq.

Azərbaycan. - 2025.- 25 aprel (№ 82).- S.11.